# Milli Qurtuluş – təqvimə qızıl hərflərlə yazılmış gün!

***Müasir Azərbaycanın təqviminə qızıl hərflərlə yazılmış günlər heç vaxt unudulmur, xalqın yaddaşına əbədi hopur. Ümumxalq bayramı kimi qeyd etdiyimiz 15 İyun – Milli Qurtuluş Günü bir xalqın, bir dövlətin yox olmaq təhlükəsindən xilas olduğu gündür.***



İmperiya caynağından övladlarının qanı bahasına qurtularaq müstəqilliyini elan etmiş Azərbaycan həmin illərdə təhlükəli, çıxılmaz duruma salınmışdı. Ölkədə hökm sürən siyasi gərginlik, hərc-mərclik, dövlət idarəçiliyini anlamayan, təcrübəsiz, təsadüfi insanların respublika rəhbərliyində təmsil olunması hakimiyyət böhranına gətirib çıxarmışdı. İqtisadiyyatın tamamilə çökməsi, işsizlik, həyat səviyyəsinin ağırlaşması, yalançı vədlər vətəndaşların məmurlara olan etimadını sıfıra endirmiş, məyusluğa, etimadsızlığa səbəb olmuşdu. Qanunsuz silahlı birləşmələrin siyasi qüvvə halını alması, cəzasızlıq kriminal ünsürlərə meydan vermiş, cinayətkarlıq ən yüksək həddə çatmışdı. AXC-Müsavat cütlüyünün bərbad idarəetmə siyasəti müharibə aparan respublikanı uğursuzluğa düçar etmiş, faktiki olaraq ölkədə böhran hökm sürməyə başlamışdı. Ən dəhşətlisi isə, xaricdən idarə olunan və respublikada baş qaldıran etnik separatizmin alovlanması Azərbaycanı parçalanmaq təhlükəsi ilə üz-üzə qoymuşdu.

Belə ağır vəziyyətdə xalqın yeganə ümid yeri yalnız Heydər Əliyev idi. Ölkəni bu bəladan yalnız və yalnız bütün şüurlu fəaliyyətini Azərbaycana xidmətdə keçirmiş xalqın əziz və sevimli övladı Heydər Əliyev xilas edə bilərdi. Xalqın təkidli tələbi ilə Heydər Əliyev yenidən hakimiyyətə gəldi. Qısa zamanda ölkə olaraq Azərbaycan dəyişdi: qanunun aliliyi təmin olundu, cinayətkarlıqla mübarizə sərtləşdirildi, ordu quruculuğu prosesinə başlanıldı, vətəndaş məmnunluğu təmin olundu. Ölkənin beynəlxalq siyasəti milli maraqlara uyğun bir şəkildə quruldu, heyrətamiz, inqilabi qlobal əhəmiyyətli, xalqımız üçün son dərəcə vacib nəhəng iqtisadi layihələr dahi Heydər Əliyev qətiyyəti ilə həyata keçirildi. Beynəlxalq münasibətlərdə dəqiq təhlillər üzərində qurulmuş Heydər Əliyev strategiyası həyata keçdi. Beləliklə, 1994-cü ilin sentyabrında ulu öndər Heydər Əliyevin gərgin əməyi sayəsində "Əsrin müqaviləsi"nin imzalanması mərasimi keçirildi. Müstəqil Azərbaycanın iqtisadi inkişaf konsepsiyasının əsasını təşkil edən neft strategiyası ustalıqla həyata keçdi. Bununla yanaşı, Heydər Əliyevin rəhbərliyi ilə respublikamız qədim İpək Yolunun bərpası, Bakı–Tbilisi–Ceyhan, Bakı–Tbilisi–Ərzurum neft və qaz xətlərinin çəkilişi kimi qlobal layihələrin təşəbbüskarına və fəal iştirakçısına çevrildi. Ulu öndər Heydər Əliyev hamının heyrət etdiyi bir tərzdə müstəqillik yolunda büdrəmiş, yıxılmış, yüksəlişi möcüzə olan bir ölkəni ayağa qaldıraraq dahiliyini, böyüklüyünü, Vətəninə olan sədaqətini nümayiş etdirməklə dünyaya nümunə olan xarizmatik bir liderin portretini yaratdı. Dünyanın siyasi liderləri belə bu dahi Azərbaycan övladının səxsiyyətinə dərin hörmət və ehtiramla yanaşır, ona heyranlıqlarını belə ifadə etməkdən çəkinmirdilər.

Böyük Britaniyanın Baş naziri Toni Bleyer yazırdı: "Heydər Əliyev Azərbaycanın böyük lideri idi. O, böhranlar dövründə öz ölkəsinə sabitlik gətirdi. Azərbaycan xalqı onun qoyduğu irs ilə fəxr edə bilər. Onun Prezident kimi fəaliyyəti dövründə ölkələrimiz arasında münasibətlərdə tərəqqi yarandı və Azərbaycan Avropa ilə əlaqələrini daha da yaxşılaşdırdı".

Bu dahi Azərbaycan övladı təkcə Vətənində deyil, dünya miqyasında qəbul edilən, sevilən böyük siyasət adamı idi. Ölkəmizin varlığı məhz Heydər Əliyevin xidmətidir. Əgər ulu öndər olmasaydı, şübhəsiz bugünkü qüdrətli Azərbaycan olmazdı. Biz xalq olaraq onun müdrikliyi sayəsində azad, firəvan yaşayırıq.

Bu gün regionun qüdrətli Azərbaycanı ulu öndərin xalqımız və dövlətçiliyimiz qarşısında ən mühüm xidmətinin nümunəsidir. Qeyd olunanlarla yanaşı, Azərbaycanın tərəqqi yolunda iri addımlarla irəliləməsini təmin edəcək layiqli varis, qətiyyətli lider yetişdirməsi də ulu öndərin xalqa olan xidmətinin davamı idi. Məhz Heydər Əliyev siyasətinin layiqli davamçısı Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu siyasət, Azərbaycanın yüksəlişi və inkişafında, milli maraqların qorunmasında, ölkəmizin dünyanın siyasi arenasında layiqli yer tutmasında öz ifadəsini tapması ulu öndərin dərin məzmunlu dövlət strategiyasının tərkib hissəsidir.

Bu strategiya böyüklüyümüzün, birliyimizin, məğlubedilməzliyimizin xəritəsidir. Bu müqəddəs strategiya ilə Vətənimizi birləşdirdik, həsrətə son verdik, Qarabağımıza qovuşduq və hələ qarşıda daha yüksək hədəflərə nail olacağıq. Yolumuz açıqdır, işıqlıdır. Bu, sarsılmış bir xalqı qurtuluşa çıxaran dahi və sevimli Heydər Əliyev yoludur! Vətən bu əziz övladını heç zaman unutmayacaq!

***Amin İSMAYILOV,***
***AMEA-nın müxbir üzvü, professor,***
***YAP İdarə Heyətinin üzvü***

Xalq qəzeti.- 2022.- 14 iyun.- S.4.